# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



**"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir**

**Böyük insan, görkəmli oftalmoloq alim - akademik ZƏRİFƏ ƏLİYEVA**



3

№ 029 (7439)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

14 aprel 2026-cı il.
Qiyməti 1 manat

# Azərbaycan regionun güc mərkəzidir

Prezident İlham Əliyev:
"Azərbaycan o ölkələrdəndir ki,
öz sözünü açıq deyir, müstəqil siyasət aparır"



2

# Dumanlı İrəvan: Paşinyan revanşistlərlə həlledici "döyüşə" hazırlaşır...



4

**"Yeni Azərbaycan" qəzetinin yaranmasından 33 il ötür**



YENİ AZƏRBAYCAN

Prezident İlham Əliyev XXI Azərbaycan Beynəlxalq qida sənayesi və IX Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgiləri ilə tanış olub

4

**Genetik məlumatlar üçüncü tərəfə ötürülərsə nə baş verir?**




6

**Onlar heç kimə yük deyillər...**



5

**Faiz açıqlanmayıbsa, bank nə qədər tələb edə bilər?**



8

**Avropa Putinin və Trampın dostlarından təmizlənir...**



5

# Azərbaycan regionun güc mərkəzidir

## Prezident İlham Əliyev: "Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır"



Son illərdə Azərbaycan böyük bir salnamə yaradıb, güclü iqtisadiyyata, dinamik inkişafa, dünya dövlətləri sırasında xüsusi imicə malik olan dövlət kimi öz imicini təsdiqləyib. Prezident İlham Əliyevin hakimiyyəti dönəmində Azərbaycan inkişafının yeni mərhələsinə qədəm qoydu. Prezident İlham Əliyev fəaliyyəti dövründə xalqa verdiyi vədləri bütünlüklə yerinə yetirib və bu müddət ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib. Bu gün Azərbaycan dünyada öz inkişaf modeli ilə tanındı, qəbul olundu. Bütün sahələrdə böyük uğurlar qazanan Azərbaycan regionun güc mərkəzinə çevrildi. Bu regionda həyata keçirilən bütün qlobal layihələr məhz Azərbaycanın razılığından sonra həyata keçirildi. Bir sıra böyük layihələr isə Azərbaycanın maliyyə imkanları nəticəsində baş tutdu. Bir sözlə Prezident İlham Əliyev uzaqgörən siyasəti, düşünülmüş islahatları və müdrik qərarları ilə Azərbaycanı dinamik inkişaf yoluna çıxarıb.

### GÜCLÜ XALQ, GÜCLÜ DÖVLƏT, GÜCLÜ LİDER

Ölkəmizin istənilən bir sahəsində uğurları görmək mümkündür ki, bu da insanların firavanlığının təminində mühüm rola malikdir. Görülən işlər deməyə əsas verir ki, Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidenti oldu və xalqın etimadını doğrultdu. Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı hər bir vətəndaşda gələcəyə daha da böyük inam və əminlik yaradıb. Prezident İlham Əliyev dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müasir müstəqil Azərbaycanın devizinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Prezident İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasəti qısa müddətdə Azərbaycanı dünya birliyinin sayılıb-seçilən üzvünə, beynəlxalq tədbirlərin, qloballaşan dünyanın problemlərinin çözüldüyü məkana çevirdi. İnkişafın Azərbaycan modeli, multikulturalizm modelimiz dünyanın diqqətini özünə çəkdi, bir çox ölkədə öyrənilməyə başlandı və örnəyə çevrildi. Azərbaycan kosmik dövlətlər ailəsinə daxil oldu, müasir, modern dövlətə çevrildi. Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri eyni qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artırır, xalqın güzəranını və rifahını dönmədən yüksəldir. Azərbaycan öz qüdrətli Liderinin uzaqgörən, qətiyyətli siyasəti ilə regionda yaranmış yeni reallıqlar fonunda daha möhtəşəm gələcəyə doğru inamla addımlayır. Azərbaycanın uğurlu inkişafının təmin edilməsində və qarşıda duran bütün əsas vəzifələr uğurla icrasının təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz Azərbaycanın dinamik inkişafının göstəriciləridir. Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilməlidir.

Müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın yürütdüyü siyasət, ölkəmizin etibarlı və strateji tərəfdaş kimi, nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaratmışdır. Regionda yeni reallıqların müəllifi və postmünaqişə mərhələsinin ümumi geosiyasi ab-havasının yenilənməsində əsas söz sahibi olan Azərbaycan regional əməkdaşlıq, sabitlik və inkişaf üçün genişmiqyaslı təşəbbüslər irəli sürür. ”Bu gün sirr deyil ki, Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır. Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır. Əlbəttə ki, bunun təməlində həm hərbi gücümüz, həm də şanlı Qələbəmiz dayanır”, - deyə Prezident bildirib. Cənab İlham Əliyevin dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Azərbaycan Prezidenti təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur.

### NEFT KAPİTALININ İNSAN KAPİTALINA ÇEVRİLMƏSİ STRATEGİYASI

Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət həyata keçirir. Azərbaycan Prezidenti sübut edir ki, liderin malik olduğu nüfuz özündə şəxsi keyfiyyətlərin, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir. Dövlət başçısının xalqın qəhrəmanı, hərbi sərkərdəsi olması onun intellektual potensialından və səriştəli idarəetmə bacarığından irəli gəlir. Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq, humanitar sahələrin inkişafı istiqamətində gərgin iş aparılıb. Təhsil sisteminin daha da təkmilləşdirilməsinə dair tədbirlər həyata keçirilib, dünyanın mötəbər universitetlərində minlərlə Azərbaycan gəncinin təhsil alması üzrə Dövlət Proqramı gerçəkləşdirilib, yeni universitetlər açılıb, təhsildə özəl sektor formalaşıb. Yeni və çevik iqtisadi yanaşmalar, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyinin daha da artırılması, vergi və gömrük sistemində köklü dəyişikliklər, şəffaflığın artırılması kimi mühüm amillər Azərbaycanın dayanıqlı və inklüziv sosial-iqtisadi inkişafını təmin edib. Təbii ki, bütün bunlar bir daha deməyə əsas verir ki, Cənab Əliyevin 22 illik prezidentliyi dövründə bütün sferalarda çevik islahatlar aparılıb, dövlət proqramları qəbul olunub. Düşünülmüş iqtisadi siyasət nəticəsində beynəlxalq qurumlarla səmərəli əlaqələr qurulub, vacib olan neft strategiyası davam etdirilib.

### BÖYÜK SİYASİ VƏ DİPLOMATİK QƏLƏBƏMİZ

Müasir dövrün qlobal çağırışlarına dəstək verən Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq imkanlarına malikdir. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu yalnız təbii qaz ixracının artırılması ilə məhdudlaşmır. Ölkəmiz eyni zamanda zəngin alternativ və bərpa olunan enerji potensialına malikdir. Günəşli iqlim şəraiti və Bakının ”küləklər şəhəri” kimi tanınması Azərbaycanın enerji ixracı imkanlarını daha da genişləndirir. Azərbaycanın artan iqtisadi qüdrəti ölkəmizə beynəlxalq marağı artırmaqla yanaşı, regional və qlobal əməkdaşlıq proseslərində onun aparıcı rolunun gələcəkdə də möhkəmlənəcəyini deməyə əsas verir. ”Biz Avropanın enerji bazarında mövcudluğumuzu genişləndirmək niyyətindəyik. Artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamışıq. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur”, - deyə Prezident bildirib. Bütün bu və ya digər amillər müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəkliklərdir. Müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər gerçəkləşib. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər vermiş oldu. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir. Cənab Prezident ”Bizim siyasətimiz, addımlarımız, xoş niyyətimiz və xarici siyasətimizin əməkdaşlıq üzərində qurulması bizə böyük dostlar düşərgəsi qazandıra bilmişdir. Təsadüfi deyildir ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə üzv seçilmişdir. Bu, bizim böyük siyasi, diplomatik qələbəmizdir, müstəqil Azərbaycanın böyük uğurudur”, - deyə bildirmişdir. Azərbaycan D-8 təşkilatına üzv oldu və bu da çox böyük nailiyyət kimi qiymətləndirilir. Bu təşkilat 30 ilə yaxındır ki, yaradılmışdır və yarandığı gündən yeni üzv qəbul etməmişdir. Ona görə bu günə qədər adı da D-8-dir. Yeganə yeni üzv Azərbaycan olmuşdur. Nəzərə alsaq ki, bu təşkilatda müsəlman dünyasının ən böyük ölkələri birləşir, Azərbaycanı dəvət etmək və bizi seçmək, əgər belə demək mümkündürsə, əlbəttə ki, böyük uğur sayıla bilər. Təkcə onu demək kifayətdir ki, bu təşkilatda birləşən ölkələrin ümumi əhalisi bir milyarddan, ümumi iqtisadiyyatı dörd trilyondan çoxdur.

Bundan başqa, azad edilmiş ərazilərimizdə ”Ağıllı şəhər”, ”ağıllı kənd” və ”yaşıl enerji zonası” konsepsiyalarının tətbiqi Azərbaycanın iqtisdi gücünü, öv vətədaşlarının social rifahı üçün gördüyü işləri əyani şəkildə nümayiş etdirir. Azərbaycanın ötən 22 il ərzində iqtisadi inkişaf parametrlərinə görə dünyada lider mövqeyə malik olması bu uğurlara söykənir. Ölkəmizi gələcək işıqlı yolunda daha da böyük uğur və nailiyyətlər gözləyir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Böyük insan, görkəmli oftalmoloq alim - akademik ZƏRİFƏ ƏLİYEVA

***Böyük xidmətləri və xeyirxah əməlləri ilə Azərbaycan səhiyyəsinin tarixində silinməz iz qoymuş görkəmli alim, əlişəfalı həkim, əməkdar elm xadimi, akademik Zərifə Əziz qızı Əliyevanın keçdiyi şərəfli həyat yolu hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, müdriklik məktəbidir. Tale Zərifə xanıma əfsanəvi bir həyat yazmışdır. O, Əziz Əliyev kimi görkəmli dövlət və elm xadiminin ailəsində dünyaya göz açmışdır. Dünya şöhrətli bir ölkə rəhbərinin həyat yoldaşı olmuş, Azərbaycana layiqli Prezident olan bir oğul bəxş etmişdir. O, həyatı boyu bütün qüvvə və bacarığını doğma xalqına xidmətə həsr etmiş və ömrünün sonunadək bu amala sadiq qalmışdır.***

Zərifə xanımın oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, çətinliklərdən qorxmayaraq, hər zaman ən mürəkkəb problemlərin həllinə cəhd göstərirdi.

Dünya oftamologiya elminə töhfələrini verən, qeyri-adi peşəkarlığı ilə şöhrətlənən böyük qəlbli insan, nəcib qadın Zərifə xanım Əliyeva əməli fəaliyyəti ilə minlərlə insanın gözünə nur verərək, onlara bu dünyanın gözəlliyini görmək kimi böyük xoşbəxlik bəxş etmişdir. Hər insan əməli fəaliyyətində bu səadətə - insanlara nur bəxş etmək səadətinə qovuşa bilmir. Böyük istedad, zəhmət, geniş qəlb və xeyrxahlıq insanı bu yüksəkliyə ucalda bilir. Gərgin əməyi ilə uzun illər elmi nailiyyətlərə imza atan Zərifə xanım elm aləmində nadir istedadlı şəxsiyyət kimi tanınır.

Elmə gətirdiyi yenilik və çəkdiyi zəhməti ilə dünya oftamologiya elmində öz möhrünü vurub. Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan böyük oftamoloq, Azərbaycanın əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyeva alimləri sabaha inamla, gələcəyə ümidlə yaşamağa ruhlandıran mənəviyyatca pak və nəcib insan, görkəmli şəxsiyyət olaraq qəlblərdə öz abidəsini ucaldıb.

Ulu Öndər Heydər Əliyev Zərifə xanım Əliyeva haqqında xatirələrində yazırdı: "Deyirlər, xoşbəxtlik nisbi anlayışdır və dünyada tam xoşbəxt olan insan yoxdur. Amma Tanrı tərəfindən seçilmiş elə şəxslər də var ki, sağlığında insanların rəğbətini, sevgisini qazanan, bu dünyayla vidalaşandan sonra isə tarixdə özünə əbədi şərəfli ad qoyan xoşbəxt insanlardan olur. Elə o da öz adını tarixin səhifələrində əbədiləşdirən, xatirələrdə hər zaman hörmətlə anılan, sayğı ilə yada salınan unudulmaz şəxsiyyətlərdən oldu. Çünki böyük Yaradan ona elə böyük ürək bəxş edib, qəlbinə elə parlaq bir nur çiləmişdi ki, onunla rastlaşan, ünsiyyətdə olan hər bir kəs ilk növbədə özündə ümid, təsəlli, inam, sakitlik tapar, könülləri xeyirxahlıq şəfəqinin şölələri ilə işıqlanardı. O, insanları sevərdi, heç vaxt heç kimi incitməz, heç kimi naümid qoymaz, heç kimə kömək etməkdən imtina etməzdi".

## HƏYAT FƏLSƏFƏSİ ÇOXCƏHƏTLİ VƏ ZƏNGİN OLAN BÖYÜK ZİYALI

Onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək olub. Bacarıqlı alimin möcüzəli əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir. O, elm sahəsində elə bir yüksək zirvədədir ki, zaman-zaman öyrəniləcək və tədqiq olunacaq məktəbdir. Yaşadığı illərdə araşdırmalar aparmış, elmi zəkası ilə gəldiyi qənaətlər və nəticələr böyük uğurlara yol açmışdır. Bu uğur bir şəxsin olmuş olsa da, bundan minlərlə, milyonlarla insan bəhrələnmişdir. Beynəlxalq aləmdə cəm olunaraq, bir araya gələn alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycan səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı.

Azərbaycan və Rusiya alimləri arasında əməkdaşlığın təməlini qoyan, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan və bütövlükdə, elmin bu sahəsinin inkişafına qiymətli töhfələr verən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi çoxcəhətli və zəngindir. Onun keçdiyi həyat və elmi yoluna nəzər salaq. Şərəfli bir ömür yolu. Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan MR-in Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açıb. Uşaqlığı bu kənddə keçsə də, sonradan onlar ailəliklə Bakıya köçüblər. 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Bu elə bir zaman idi ki, Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. Bu xəstəliyə qarşı təsirli müalicə üsulları yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə xanım Əliyevanın bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi.



## ELMİ ƏSƏRLƏRİN MÜƏLLİFİ

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Zərifə xanım "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində, H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Onun dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir. Öz həyatını tibb elminə bağlayan Zərifə xanım mərhələ-mərhələ buna nail olub. Onun elmi nailiyyətlərinə nəzər saldıqda nə qədər böyük əhəmiyyətə malik olduğunu görürük. Zərifə xanım Əliyeva 1983-cü ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Onun daktriologiyadan bəhs edən - "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edir. Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. O, "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərin müəlliflərindən biridir. Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına da əvəzsiz töhfələr vermişdir.

## O, HƏM XEYİRXAH İDİ, HƏM AĞILLI İDİ, HƏM DƏ QÜDRƏTLİ İDİ!

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə, 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilən Zərifə xanım ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Elmi və ictimai fəaliyyəti diqqətdən kənarda qalmamış və dünya oftalmologiya elminin tanınmış simaları Onun haqqında tarixi sözlər demişlər.

Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun direktoru, professor Nazim Əfəndiyevin, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, dövlət mükafatı laureatı A.Nesterovun, tibb elmləri doktoru, professor Z.Skripinçenkonun, Sankt-Peterburq Gigiyena İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, professor A.N.Dobromislovun və başqalarının yazılarında alimin şərəfli və zəngin elmi fəaliyyətinin nailiyyətlərindən danışılır. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) öz əksini tapıb. Moskva Oftalmoloji Məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, professor A.Brovkina Onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M.Krasnov isə yazırdı: "Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım, deyərdim: O, həm xeyirxah idi, həm ağıllı idi, həm də qüdrətli idi!"

## ZİYALI İŞIĞINDAN İNSANLARA VERİLƏN NUR

Onun elmi nailiyyətləri ilə yanaşı, ziyalı işığı da daim insanlara nur, qüvvət verib. Zərifə Əliyevanın hər sözü, hər bir hərəkəti nümunəyə çevrilib. Hətta həmkarlarına verdiyi tövsiyələr onun ziyalılığının nümunəsidir. İnsana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq onu özünə qaytaran əsl humanist xidmətdir kimi tövsiyələri diqqəti çəkir. Bu, Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi olub. Həkimin başlıca peşəsi müalicə kursunu müəyyənləşdirməklə yanaşı, xəstəyə insani dəyərlər prizmasından yanaşmaq, onun şəxsiyyətinə dərin ehtiram göstərməkdir ki, bu da Zərifə xanım Əliyevada özünü açıq-aydın büruzə verib.

Çox alimlər, ziyalılar onun ünvanına - şəxsiyyətinə, elmi uğurlarına, tədqiqatlarına yüksək fikirlərini bildiriblər. Müasirləri Onun haqqında söz açarkən, nəcib bir Azərbaycan qadını olduğunu qeyd ediblər. Zərifə xanım işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın kimi mülayimliyi ilə, həssaslığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib.

## "BİZİ AZƏRBAYCANIN LAYİQLİ VƏTƏNDAŞLARI KİMİ TƏRBİYƏ ETMƏYƏ, BÖYÜTMƏYƏ VAXT TAPIRDI"

Ailə əsrlər boyu Azərbaycan üçün çox önəmli olmuşdur. Ümummilli lider Heydər Əliyevin ailəsindəki başlıca həyat prinsipi xalqa, millətə xidmət və sədaqət idi. Bu yolda Zərifə xanım ona əsl həyat yoldaşı olmuşdur.

Bu gün isə ölkə Prezidenti cənab İlham Əliyev xalqa xidmət amalını bir ailə ənənəsi kimi yaşadır. Azərbaycan Prezidentinin ölkə səhiyyəsinə diqqət və qayğısı, Azərbaycan xalqının sağlamlığının qorunması yolunda gördüyü işlər, ümumiyyətlə, ölkədə həyata keçirilən sosial yönümlü siyasət ulu öndərin müəyyən etdiyi siyasi xəttin uğurla davam etdirilməsinin parlaq təzahürüdür. Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, Onun fədakar ana olmasından irəli gəlirdi. O, nə edirdisə, böyük sevgi ilə edirdi. Zərifə xanım qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı olaraq iki övlad böyüdüb - ata-anasına layiq, qəlblərində daim Azərbaycan sevgisi yaşadan, vətənimizin qüruru sayılan övladlar kimi. Azərbaycan Prezidenti İlham Əliyev Zərifə xanım haqqında belə deyir: "Mənim anam əsl alim idi. O, tibbin bütün incəliklərini öyrənməyə səy göstərirdi. Bununla bərabər mənimlə, Sevillə məşğul olmağa, bizi Azərbaycanın layiqli vətəndaşları kimi tərbiyə etməyə, böyütməyə vaxt tapırdı. O, həmişə mənim qəlbimdədir."

## NÜMUNƏVİ HƏYAT YOLU

Göründüyü kimi, Zərifə xanımın bir qadın olaraq ətrafında nə qədər məsuliyyət cəmləşib: ana, həyat yoldaşı, övlad, Vətən keşiyində duran elmli-zəkalı ziyalı. Elm, ədalət, səxavət, səbr, həya və ismət kimi keyfiyyətlər Onun həyat simvoluna çevrildi. Bu dəyərlər içərisində güclü və fədakar oldu. Azərbaycan tarixinə məxsusi dəyərləri ilə iz saldı. Yaşanılan ömür yolunun sərlövhələri Onu zamanımızın seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirdi. Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi hər kəsə bəlli bir nümunəvi yoldur. 15 aprel Zərifə xanımın anım günüdür. Zərifə xanım Əliyeva ömrünün 62-ci baharında, 1985-ci il aprelin 15-də Moskva şəhərində dünyasını dəyişib. 1994-cü ildə Zərifə xanım Əliyevanın cənazəsi Bakıya gətirilərək Fəxri Xiyabanda dəfn olunmuşdur.

***Zümrüd BAYRAMOVA***

# Dumanlı İrəvan: Paşinyan revanşistlərlə həlledici “döyüşə” hazırlaşır...



***Ermənistan hakimiyyəti və müxalifət seçiciləri millətin dəstəyinə sahib olduqlarına inandırmağa çalışır. Sorğular göstərir ki, hər iki tərəfin dəstəyi 30%-dən aşağıdır. Lakin bu, seçkilərdə qalib gəlmək üçün kifayət edə bilər. Rusiyaya missionerlik edən oliqarx Samvel Karapetyanın ”Güclü Ermənistan” partiyasının İrəvanda mitinqi keçirilib. Təşkilatçılar iddia edirlər ki, təxminən 40.000 nəfər iştirak edib, hökumətyönlü media isə 12.000 nəfərdən çox deyil. Keçmiş prezident Robert Köçəryanın və arxiyepiskop Baqrat Qalstanyanın rəhbərlik etdiyi 2021-2024-cü illərdəki etirazlarla müqayisədə mitinqi nisbətən baş tutmuş hesab etmək olar. Lakin bu etirazların səbəbləri fərqli idi. Əgər əvvəllər insanlar Qarabağ uğrunda itirilmiş müharibə və Azərbaycanla sərhədin demarkasiyası fonunda ölkələrini itirmək qorxusundan küçələrə çıxırdılarsa, indi əsas səbəb ”Güclü Ermənistan”ın parlamentə daxil olmaq və öz hökumətini qurmaq istəyidir.***

Karapetyanın qohumlarının mitinqdə xarizmatik natiqlər və milli qəhrəmanlar əvəzinə çıxış etməsi və bəzi iştirakçıların tədbirə avtobusla gətirilməsi təəccüblü deyil. Digər tərəfdən, ”Güclü Ermənistan” hakim ”Vətəndaş Müqaviləsi” partiyasının əsas rəqibi hesab edilir. Əgər kimsə 2026-cı ildə Baş nazir Nikol Paşinyandan hakimiyyəti ələ keçirə bilsə, bu Karapetyandır. ”Mən kilsəni və kimliyimizi müdafiə etdiyim üçün təxminən bir ildir ki, həbsdəyəm. Erməni xalqını yoxsulluq, müharibə qorxusu və parçalanma içində saxlayan rejimə qarşı çıxış etdim”, - deyə Karapetyan videomüraciətində izdihama müraciət edib.

Rüsvay olmuş oliqarx həmvətənlərinə 300.000 iş yeri və respublikanın təhlükəsizliyini təmin edəcək peşəkar ordu yaradacağına söz verib. Karapetyanın sözlərinə görə, onun hakimiyyəti dövründə Ermənistan dinc, çiçəklənən və güclü bir ölkəyə çevriləcək. Lakin Karapetyan toplaşanları müxalifətin qalib gələcəyi təqdirdə, payızın əvvəlində Azərbaycanla yeni bir müharibənin başlayacağını iddia edən Paşinyanın komandasına inanmamağa çağırıb. Eyni zamanda, ”Güclü Ermənistan” lideri mövcud hökumətin keçmişdəki ”məğlubedici” siyasətindən əl çəkəcəyinə söz verib. Qondarma ”Artsax”ın bayraqlarını mitinqə gətirən insanlar bu yanaşmaya açıq şəkildə fərqli qiymət veriblər.

Lakin Karapetyan İrəvanda çıxış edərkən Paşinyan Taşirə gedib. Oliqarx bu şəhərdə anadan olub və sonradan şirkət qrupuna onun adını verib. Paşinyanı orada demək olar ki, gəzdiriblər. Baş nazir uşaqlarla şəkil çəkdirib, yaşlıları qucaqlayıb, Azərbaycanla sülhə görə təşəkkür edib... Bütün bunlar müxalifəti lağa qoymaq cəhdi kimi görünüb. Buna baxmayaraq, görünür, ”Vətəndaş Müqaviləsi” Partiyası Taşirdə müəyyən səviyyədə dəstək alır, İrəvanda isə Güclü Ermənistan da belədir.

Bu arada, 10-12 aprel tarixlərində Azərbaycanın Qəbələ şəhərində ”Sülh Körpüsü” təşəbbüsü çərçivəsində Ermənistan və Azərbaycandan olan vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirən dəyirmi masa müzakirəsi keçirilib. Ermənistan nümayəndə heyəti qonşu ölkəyə quru sərhədi vasitəsilə gəlib, rəsmi olaraq müəyyən edilmiş hissəni keçib və bütün lazımi sərhəd və pasport nəzarəti prosedurlarından keçib.

Tədbir təşkilatçıları bəyanatda bildiriblər ki, ”Bu sərhəd keçidi özü Azərbaycan və Ermənistan cəmiyyətləri arasında etimadın gücləndirilməsinə yönəlmiş ”Sülh Körpüsü” təşəbbüsü çərçivəsində daha bir simvolik addım idi”.

Dəyirmi masa iştirakçıları Cənubi Qafqazda və ətrafında geosiyasi inkişafları, o cümlədən hadisələrə Bakı və İrəvandan necə baxıldığını bir-birlərinə izah etməyi müzakirə ediblər. Təşkilatçılar iddia edirlər ki, ”Vətəndaş cəmiyyəti nümayəndələrinin bu görüşü konstruktiv dialoq və səmimi müzakirələr atmosferində keçib və sülh gündəliyinə alternativ olmadığına dair inamı təsdiqləyib”.

Xatırladaq ki, bu, üçüncü ”Sülh Körpüsü” dəyirmi masadır. Fevral ayında Azərbaycan mütəxəssisləri İrəvana, noyabr ayında isə Ermənistan mütəxəssisləri Bakıya səfər ediblər. Bundan əlavə, 11 apreldə Azərbaycan Ermənistana 887 ton dizel yanacağı göndərib. Bu da ikitərəfli münasibətlərdə yeni bir təcrübə deyil. İlk çatdırılmalar 2025-ci ilin dekabrında edilib. ”Azərbaycan və Ermənistan arasında sülh gündəliyi iki sənəddən ibarətdir: sülh müqaviləsinin paraflanmış mətni və 8 avqust 2025-ci ildə Vaşinqtonda dövlət başçıları tərəfindən qəbul edilmiş birgə bəyanat. İrəvandakı hökumət dəyişərsə, Bakı yeni hakimiyyətin hərəkətlərini izləyəcək. Əgər onlar sülh müqaviləsinin mətnini dəyişdirmək istəsələr, imzalarını geri götürməli olacaqlar. Bu, danışıqlar prosesini məhv edəcək. Əgər onlar ABŞ prezidenti Donald Tramp tərəfindən imzalanmış üçtərəfli bəyanatdan imtina etsələr, bunun da mənfi nəticələri olacaq. Bundan əlavə, şifahi razılaşmalara əsaslanan hərəkətlər dayandırılacaq”, - deyə Sülh Körpüsü layihəsinin iştirakçısı və Azərbaycan Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru Fərhad Məmmədov bildirib.

Eyni zamanda, o qeyd edib ki, Bakı Ermənistanla birtərəfli qaydada sərhədləri təyin etmək kimi niyyəti yoxdur. İrəvanda bunu silahlı təcavüz adlandırırlar. Məmmədovun sözlərinə görə, Azərbaycan hakimiyyəti ümumiyyətlə sərhədin hazırkı vəziyyətindən razıdır. Anklavlarla bağlı suallar qalır, lakin bunu tələsik həll olunan məsələ də deyil.

Strateji Araşdırmalar və Təşəbbüslər Analitik Mərkəzinin (ACSISI) rəhbəri Hayk Xalatyan isə əksinə hesab edir ki, hakimiyyət dəyişikliyi İrəvanın xarici siyasətində canlanmaya səbəb ola bilər. ”Paşinyan hökuməti Azərbaycanla ”nəyin bahasına olursa olsun sülh” prinsipi əsasında danışıqlar aparır, baxmayaraq ki, onun siyasəti Bakının yekun sülh sazişində tamamilə maraqlı olmadığı bir vəziyyət yaradır. O, güc təzyiqi və gələcəkdə guya sülh vədi müqabilində Paşinyandan getdikcə daha çox güzəşt əldə edə biləcəyini başa düşür. Buna görə də, istər Güclü Ermənistan, istərsə də başqa bir partiya olsun, müxalifətin hakimiyyətə gəlməsi danışıqlar prosesinin mövcud məntiqini dəyişdirməyə və Ermənistan üçün Paşinyanın təklif etdiyindən daha əlverişli və ləyaqətli şərtlərlə sülhə nail olmağa kömək edəcək”, - deyə ekspert bildirib.

O, həmçinin hesab edir ki, Paşinyanın müxalifətin qələbəsindən sonra qaçılmaz olaraq Azərbaycanla müharibənin başlayacağı barədə açıqlamaları sadəcə seçiciləri ”Vətəndaş Müqaviləsi”nə səs verməyə məcbur etmək cəhdini göstərir. Əslində, mövcud müxalifət müttəfiqləri, ilk növbədə Rusiya ilə münasibətlərini gücləndirə bilər ki, bu da Bakıdan gələn potensial təhdidləri neytrallaşdırmağa kömək edərdi.

***V.VƏLİLİ***




## ”Yeni Azərbaycan” qəzetinin yaranmasından 33 il ötür

### Bəhruz Quliyev: "Yeni Azərbaycan" qəzeti hər zaman dövlətçilik mövqeyinə sadiqliyi, peşəkarlığı və prinsipiallığı ilə seçilib



Artıq ”Yeni Azərbaycan” qəzetinin yaranmasından 33 il ötür. SİA xəbər verir ki, 1993-cü ildə təsis olunan qəzet müasir Azərbaycan mətbuatının inkişafında mühüm rol oynayıb. Ulu öndər Heydər Əliyevin siyasi kursunun təbliği, dövlətçilik ideyalarının geniş ictimaiyyətə çatdırılması və ölkənin ictimai-siyasi həyatında baş verən mühüm hadisələrin operativ şəkildə işıqlandırılması ”Yeni Azərbaycan” qəzetinin əsas fəaliyyət istiqamətlərindən olub.

Yarandığı ilk gündən etibarən qəzet obyektivlik, peşəkarlıq və dövlət maraqlarına sədaqət prinsiplərini əsas götürərək oxucuların etimadını qazanıb. Müxtəlif dövrlərdə ölkədə həyata keçirilən islahatlar, sosial-iqtisadi inkişaf, beynəlxalq əlaqələr və digər mühüm sahələr barədə dolğun materiallar təqdim edən nəşr bu gün də informasiya məkanında öz mövqeyini qoruyub saxlayır.

33 illik fəaliyyəti ərzində ”Yeni Azərbaycan” qəzeti zəngin inkişaf yolu keçərək müasir media mühitinə uyğunlaşmağı bacarıb, ənənə ilə yeniliyin vəhdətini qoruyub. Bu münasibətlə qəzetin kollektivi və oxucuları səmimi qəlbdən təbrik edilir, gələcək fəaliyyətlərində yeni-yeni uğurlar arzulayırıq. Səs Media Qrupun rəhbəri Bəhruz Quliyev ”Yeni Azərbaycan” qəzetini təbrik edir, fəaliyyətinin Azərbaycan mediasındakı əhəmiyyətindən bəhs edib:

”Yeni Azərbaycan Partiyasının təsisçisi olan ”Yeni Azərbaycan” qəzetinin 33 illik yubileyi münasibətilə redaksiya kollektivini və bütün oxucularını ürəkdən təbrik edirəm. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan bu qəzet ötən illər ərzində milli dövlətçilik ideyalarının təbliğində, cəmiyyətin maariflərdirilməsində və ictimai-siyasi proseslərin obyektiv işıqlandırılmasında mühüm rol oynayıb. ”Yeni Azərbaycan” qəzeti hər zaman dövlətçilik mövqeyinə sadiqliyi, peşəkarlığı və prinsipiallığı ilə seçilib.

Bu gün İlham Əliyev tərəfindən uğurla davam etdirilən inkişaf siyasətinin informasiya təminatında da qəzetin xüsusi yeri var. O, müasir dövrdə də öz missiyasını layiqincə yerinə yetirərək milli maraqların qorunmasına xidmət edir.

Bu əlamətdar gün münasibətilə başda hörmətli dostum Alqış müəllim olmaqla qəzetin kollektivinə möhkəm cansağlığı, yaradıcılıq uğurları və gələcək fəaliyyətində daha böyük nailiyyətlər arzulayıram”.

# Onlar heç kimə yük deyillər...

***Ahıllıq həyatın ən kövrək anıdır. Nədənsə insan yaşlananda, kövrək olur. Qəlbinə hər şey tez toxunur. Elə buna görə də ahıllıq eyni zamanda bir sınaq dövrüdür. Xeyr, ahılların deyil, övladların sınaq dövrüdür. Ahıllıq çağı övladları sınayır. Kim valideyninə sahib çıxır, həyatını bəxş etdiyi, zəhmət çəkərək böyüdüb ərsəyə çatdırdığı, yuxusuz gecələrini verdiyi övladların hansı valideyninin ahıllıq çağının sahibidir, bax bunu məhz həmin dövr göstərir.***





İnsan yaşlandıqca, bir evin işığına, nuruna çevrilir. Lakin bu nurun da qayğıya ehtiyacı olur. Övladlar onu, necə deyərlər, ovcunun içərisində saxladıqca, onlar bu qayğını gördükcə, ömürlərinin yeni baharlarını yaşayırmış kimi sanırlar özlərini. Ailəyə işıq saçırlar. Hər kəsi başlarına toplayır, bir evə ağsaqqallıq, ağbirçəklik edirlər. Böyük olan yerdə Allah vardır, deyiminə əsasən belə evlərdə bar-bərəkət də olur. Böyüyün, kiçiyin yeri bilinir. Hər iş öz nizamı, axarı ilə gedir.

Lakin övladlar da var ki, valideyni qocaldıqca, artıq ona yük kimi gəlir. Axı onlar əvvəlki kimi işləmir, qazanc gətirmir, ev, həyətbaca işlərində əvvəlki qədər onlara kömək göstərə bilmirlər. Bu səbəbdən də belə övladlar öz ahıl valideynlərinə sahib çıxmır, onları tək qoyur, ayrı yaşamağı seçir, əksər halda isə ahıllar evinə yola salırlar.

Uzun illər yaşadığım Şahbuz rayonunda da belə bir ahıllar evi var idi. Tez-tez yolumu oradan salır, buradakı ahıllarla söhbətləşirdim. Hər biri Azərbaycanın bir bölgəsindən idi onların. Kiminin heç kəsi yox idi, ona görə ahıllar evinə pənah gətirmişdi. Kimi isə övladı tərəfindən atılmış, bu səbəbdən dövlətin himayəsinə sığınmaq məcburiyyətində qalmışdı. Onlarla söhbət etdikcə, üzlərindəki illərin açdığı qırışlardan və xüsusilə də əllərindən-zəhmətin bütün çalarları çökmüş əllərindən, bir də yollara dikilən gözlərindən gözümü çəkə bilmirdim. Axı bu əllər bir zamanlar övlad başı sığallamışdı, onun hər bir qayğısının zəhmətini çəkmişdi. Axı bu gözlər gecə səhərədək beşik başında yuxuya həsrət qalmışdı. Axı üzlərdəki bu qırışların hər biri ötən illərin qayğılarının inikası idi...

## Bəs haradadır övladlar?..

Ahıllar evindəki ahılları hər zaman pəncərə önündə görmək olurdu. Onlar sanki bu pəncərələrdə kiminsə yolunu gözləyirdi. Gözləri daim yol çəkirdi. Yəqin vicdanı nə vaxtsa narahat olacaq övladlarını gözləyirdilər.

Lakin onlar gəlmək bilmirdi. Başları harada qarışmışdı, nə işlə məşğul idilərsə, yadlarına ata-anaları əsla düşmürdü. Ahıllar vardı ki, bir dəfə də onlarla maraqlanan olmurdu. Bəzən uzaq qohumlardan onları görməyə gələn olurdu, lakin öz övladlarından səs-səmir gəlmirdi...

Odur ki, pəncərə önündə gözləri yolda qalırdı onların... Ahılları belə görəndə adamın ürəyi parça-parça olurdu. Bir anlığa həmin övladları axtarmaq, tapmaq və belə bir sual vermək istəyirdim: haradasınız? Nə üçün bircə dəfə də olsun, yadınıza ata-ananız düşmür. Məgər onları unutmaq belə asandımı?

Və hər dəfə düşünürdüm ki, belə övladlar həyatda xoşbəxt ola bilməz. Bir evin çırağı olan ata-anasını ahıllar evinə atan, ondan illərlə xəbər almayan övladın evində işıq yana bilməz. Çünki evlərimizin işığı da, nuru da valideynlərimizdir. Onlar yaşlaşdıqca, bu nur daha da artır. Onun şöləsi ətrafa daha da çox yayılır. Hər kəs bu işığa gəlir. Övladlar, sonra nəvələr, daha sonra nəticələr, kötücələr və sair...

Bəs o işıq yoxdursa, o evdə necə yaşamaq olar? Bu nur həm işıq, həm də istilikdir. Bir evdə ki, istilik yoxdur, orada rahatlıq olarmı?

## Dünən qolları üstündə, bu gün nəvazişində

Onlar yaşlaşdıqca, xəstələnə, sağlamlıq imkanlarını itirə bilirlər. Bundan xoflanan, valideyninin ona yük olacağını fikirləşən övladlar olur. Lakin dərindən düşünəndə, onlar əsla yük deyillər. Bu, həyatın gedişatıdır. Dünən sən onların qolları üstündə idin, bu gün onlar sənin nəvazişində olmalıdır. Və sabah da sən bu gün qayğısını çəkdiklərindən qayğı görmək istəyəcəksən. Bax, budur həyat.

Lap belə deyək, dünənədək sən onlara necə yük ola bilirdinsə, onlar da sənin yükün ola bilərlər. Bu yükü çəkmək isə sənin borcundur, övlad. Bu yük yuxusuz gecələrdən, ağzının ən şirin tikəsini sənin ağzına qoymaqdan, səhərdən axşamadək çalışıb sənin istəklərini yerinə yetirməkdən, bir qarın ac, bir qarın tox yalnız sənin qarnının tox olmasını düşünməkdən, min bir çətinliklə sənə təhsil verməkdən, toy etməkdən ağır ola bilməz. Odur ki, et ki, sənə də sabah edən olsun.

Onlar heç kimə yük deyillər. Sağlamlıq imkanları, fiziki gücləri azalsa da, maddi vəziyyətləri yerindədir. Çünki dövlətdən məvacib-pensiya alırlar. Bəzən bu pensiyanın dörddə biri onların özlərinə sərf olunmur. Övladlar var ki, öz ailəsinin qayğılarını bu vəsaitlə qarşılayır. Və bu vəsaitin sahibinə isə yeri gələndə səsini qaldırır. Övladlar var ki, məhz bu pensiyaya görə valideynlərinin yanında qalır. Yoxsa, onları çoxdan tərk etmiş olardı. Gündəlik siqareti də onların pensiyası ilə alır. Lakin ahıl ata-ananın ürəyi alma istəyir, onlara aylarla bu meyvədən bir kiloqram alan oğul-qız olmur.

Onlar isə susurlar. Bu qayğısızlığa səslərini belə çıxarmırlar. Sanki nədənsə qorxur, susurlar. Bəlkə də evdə söz-söhbət yaranmaması üçün susurlar. Bəlkə də atılmış valideynlər gözləri önünə gəlir, buna görə susurlar. Yaşdaşlarının başına gələnlər gözlərini qorxudur ahılların. Axı onların əvvəlki tək gücü, necə deyərlər "əli-ayağı" yoxdur. Onların qayğıya ehtiyacı var. Məhz bu qayğı kəsir qarşılarını. Bəzi övladlar nə sitəm etsə də, ahıllarımız susur, buna dözürlər.

Ahıllarla övladları aradında bircə qalır vicdan. Vicdan varsa, övlad insanlıqdan öz nəsibini almışsa, valideyninin ahıl çağında ona sahib çıxır. Ona özünə göstərilən qayğını göstərir. Yox, əgər vəziyyət əksinədirsə, yuxarıda dediyim kimi, ata-analarımız ahıl çağında həyatın məşəqqətləri ilə qarşılaşır. Lakin susur, susurlar...

## Dövlətimizin ahıl vətəndaşları

"Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununa əsasən ölkəmizdə yaşı 70-ə çatmış şəxslər ahıl hesab olunurlar. 2024-cü ilin əvvəlinə ölkədə yaşı 70 və daha çox olan vətəndaşların sayı 500.9 min nəfər olub. Bu, ümumi əhalinin 4,9 fazi dəməkdir.

Ümummilli Lider Heydər Əliyev tərəfindən ahıl insanlara, onların sosial müdafiəsinə daim xüsusi diqqət və qayğı göstərilib. Bunun nəticəsi kimi, hələ 1993-cü ildən ölkəmizdə də hər il Beynəlxalq Ahıllar Günü yüksək səviyyədə qeyd olunmaqla, bu kateqoriyadan olan vətəndaşların təminatlarının artırılması üçün ardıcıl işlər aparılıb. Ötən 20 ildən artıq dövrdə isə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasət ahıl insanlarımızın etibarlı sosial müdafiəsinə yönələn tədbirlərin ildən-ilə daha da genişlənməsinə imkan verib. Dövlət başçısının imzaladığı müvafiq fərman və sərəncamlar, "Azərbaycanda demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı", "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı" və digər sənədlər nəticəsində ahıllara dövlət qayğısının artırılması sahəsində mühüm addımlar atılıb. Dövlətimiz hər bir vətəndaşı kimi, ahılların da sahibidir. Onların rifah halı üçün nə lazımdırsa, edib və etməkdədir.

***Mətanət Məmmədova***

# Avropa Putinin və Trampın dostlarından təmizlənir...

## Mətləb Salahov: "Demək olar ki, Rusiyanın Avropadakı "əsas qolu" dibindən qoparıldı"



"Macarıstanda keçirilən son parlament seçkiləri bu ölkə üçün təkcə tarixi dəyişiklik və rekord seçici fəallığı baxımından yaddaqalan olmadı. Bu seçkilər həm də artıq fasiləsiz olaraq 16 ildir hakimiyyət başında olan və daha çox Vladimir Putinlə Donald Trampın dostu kimi ad çıxarmış bir şəxsin despot hakimiyyətinin "son zəngi" oldu". Hakimiyyətdə olduğu 16 il ərzində fasiləsiz olaraq Avropa siyasi kursuna qarşı mövqe sərgiləyən, Ukraynaya qarşı kəskin mövqeyi ilə seçilən, əvvəlcə Rusiya lideri V.Putinlə, son illərdə isə ABŞ prezidenti Donald Trampla həmrəylik siyasəti yürüdən Viktor Orban və hakimiyyəti artıq tarixə çevrildi".

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, yeni Macarıstan hakimiyyəti ölkəni avroatlantik siyasi kursa qaytaracağını vəd etdiyi üçün rəsmi Budapeştin xarici siyasət kursunda ciddi dəyişiklik gözlənilir: "Demək olar ki, Rusiyanın Avropadakı "əsas qolu" dibindən qoparıldı. Bura D.Trampın Avropa İttifaqındakı daha bir dəstəkçisinin itirilməsi də daxildir. V.Orban zaman-zaman Avropa İttifaqında xaotik vəziyyətin yaradılması üçün addımlar atırdı. Ona görə də Avropa qitəsində daha çox despot hakimiyyət sahibi sayılan V.Orban rejiminin süqutu həm də Avropa İttifaqının daha kompakt şəkildə təşkilatlanması baxımından önəmli faktdır. Unutmayaq ki, Macarıstan Avropa üçün strateji baxımdan olduqca önəmli ölkədir".

***Afət Tahirqızı***

# Genetik məlumatlar üçüncü tərəfə ötürülərsə nə baş verir?



**Müasir dövrdə genetik məlumatlar insanın ən həssas və dəyişməz şəxsi məlumatları hesab olunur. Genetika sahəsində aparılan inkişaf nəticəsində artıq bir damla qan, tüpürcək və ya DNT nümunəsi vasitəsilə insanın irsi xəstəlik riskləri, mənşəyi və bəzi bioloji xüsusiyyətləri müəyyən edilə bilir. Bu isə genetik məlumatların həm tibbdə böyük imkanlar yaratdığı, həm də ciddi məxfilik və təhlükəsizlik riskləri doğurduğu deməkdir.**






Son illərdə Genetik məlumat məxfiliyi məsələsi xüsusi aktuallıq qazanıb. Çünki bu məlumatların düzgün qorunmaması və ya üçüncü tərəflərə ötürülməsi fərdlərin şəxsi həyatına müdaxilə, diskriminasiya və hətta hüquqi problemlərə səbəb ola bilər. SİA mövzu ilə bağlı araşdırma edib.

## Genetik məlumatların məxfiliyi necə qorunur?

*Genetik məlumatların qorunması bir neçə əsas mexanizm üzərindən həyata keçirilir:*

**1. Hüquqi tənzimləmə**

Bir çox ölkələrdə genetik məlumatlar xüsusi kateqoriyalı həssas məlumat kimi tanınır və qanunla qorunur. Bu məlumatların toplanması, saxlanması və paylaşılması yalnız şəxsin razılığı ilə mümkündür.

**2. İnformasiya təhlükəsizliyi texnologiyaları**

Laboratoriyalar və tibbi mərkəzlər genetik məlumatları:

* şifrələmə (encryption),
* anonimləşdirmə,
* təhlükəsiz serverlərdə saxlanma

kimi üsullarla qoruyur.

**3. Etik qaydalar və tibbi standartlar**

Tibbi qurumlar və tədqiqat mərkəzləri xəstənin məlumatlarını üçüncü şəxslərə ötürməmək üçün etik kodekslərə riayət edirlər. Həkimlər isə peşə sirri öhdəliyi daşıyır.

## Genetik məlumatların üçüncü tərəflərə ötürülməsi hansı riskləri yaradır?

*Genetik məlumatların icazəsiz paylaşılması bir sıra ciddi risklər doğura bilər:*

**1. Diskriminasiya riski**

Sığorta şirkətləri və ya işəgötürənlər genetik risklərə əsaslanaraq insanlara qarşı ayrı-seçkilik edə bilər (məsələn, xəstəlik riski yüksək olan şəxslərə sığorta verməmək).

**2. Şəxsi həyatın pozulması**

İnsanların irsi xəstəlikləri və ailə tarixi kimi məlumatlar onların icazəsi olmadan açıqlandıqda şəxsi həyat ciddi şəkildə pozula bilər.

**3. Kiber təhlükəsizlik riskləri**

Haker hücumları nəticəsində genetik məlumat bazalarının oğurlanması və qara bazarda satılması mümkündür.

**4. Sosial və psixoloji təsirlər**

İnsan öz genetik risklərini bilmədiyi halda bu məlumatların üçüncü şəxslər tərəfindən yayılması stress, qorxu və sosial təzyiq yarada bilər.

**5. Sui-istifadə və kommersiya məqsədləri**

Bəzi şirkətlər genetik məlumatları icazəsiz şəkildə marketinq və ya tədqiqat məqsədləri üçün istifadə edə bilər. Genetik məlumatlar insanın "bioloji kimliyi" sayıldığı üçün onların qorunması olduqca vacibdir. Bu sahədə həm güclü hüquqi baza, həm də müasir texnoloji təhlükəsizlik tədbirləri zəruridir. Əks halda, bu məlumatların üçüncü tərəflərə ötürülməsi fərdi hüquqların pozulmasına, sosial bərabərsizliyə və ciddi etik problemlərə yol aça bilər.

***Ayşən Vəli***



**Elçin Bayramlı**

# Sizə qəzet lazımdır?

İnternetin inkişafı media sistemini, formatını, peşə qaydalarını, peşə prinsiplərini tamam dəyişdi. Elektron media və sosial şəbəkələr informasiya məkanında üstünlüyü ələ alıb. Klassik media yalnız Almaniya, Fransa, Rusiya, Britaniya kimi ənənəvi oxuma vərdişlərinə yiyələnmiş ölkələrdə hələ də müqavimət göstərə bilir.

Azərbaycanda isə yazılı mətbuat yalnız dövlət dəstəyi ilə ayaqda qalır. Heç bir qəzet özünü maliyyələşdirə bilməz. Buna görə dövlətə ən azı təşəkkür düşür. Çünki çap mətbuatının yaşaması vacibdir. Qəzet-jurnallar sadəcə mətbuat deyil, bu, həm də yazılı, sənədli tarixdir. İstənilən vaxt istənilən qəzetin istəniln nömrəsini arxivdən götürüb oradan bəhrələnmək olar. Lakin internet saytlar haqda bunu demək olmaz. Onların bazaları tez-tez itir, xaker hücumları ilə silinir, məhv olub gedir. Şəxsən mənim internet saytlarında indiyədək minlərlə yazım olduğu halda, axtarış verəndə 100-nü tapmaq olmur. Amma bütün yazılarım qəzet səhifələrində arxivimdə qalır.

Dövlətin çap mətbuatını qorumasının səbəbləri aydındır. Çünki onların öz gücü ilə ayaqda qalması mümkün deyil. Xüsusən də, bizim kimi qəzet-jurnal oxumağı bir zərərli vərdiş kimi tərgidən cəmiyyətdə. İnformasiya əsrinə, sürət əsrinə gəlib çıxdıq, qəzet jurnallar bu sürətlə ayaqlaşa bilmir, onlar bir xəbəri verənə kimi vəziyyət 3 dəfə dəyişir. Qəzet-jurnal sanballı təhlillər, xüsusi müsahibələr, dərin araşdırmalar verməlidir ki, saytlardan fərqlənə bilsin. Amma bunu da edə bilmirlər. Çünki bunun üçün yaxşı maddi texniki baza, peşəkar kadrlar lazımdır, onlar da aşağı maaşa və ya qonorara işləmirlər. Maliyyə azdır deyə qəzetlər mütəxəssislərə, peşəkar jurnalistlərə səviyyəli yazılar yazdıra bilmirlər, ucuz işçi qüvvəsi kimi daha çox gənc praktikantları işlətməyə üstünlük verirlər. Bu da nəticəsini göstərir. Üstəlik, çap mətbuatı yeganə media növüdür ki, ona pul ödəmək lazımdır. Razılaşın ki, hər gün 50-60 qəpik verib qəzet almaq sərfəli deyil. Çünki həmin materialları internetdə pulsuz oxuyur, TV-lərdə pulsuz baxır, radioda pulsuz dinləyirlər.

Yəni, klassik mətbuatın müsbət və mənfi tərəfləri var. Lakin tərəziyə qoysaq, müsbət tərəflər daha ağır gələr. Ona görə də, dövlət çap mətbuatına dəstəyi artırmalı, onların maddi-texniki, kadr bazasını gücləndirməsinə yardım etməlidir. Qəzetlərə həm də mənəvi dəstək lazımdır. Bu baxımdan, bəzi televiziyalarda gündəlik qəzetlərin icmalının verilməsi təqdirəlayiqdir. Bunu radiolarda da etmək olar.

Elektron mediaya gəldikdə burada hər cür imkanlar var. Sadəcə, bu sahədə anarxik vəziyyət olduğundan vəziyyət birmənalı deyil. Bunun müsbət və mənfi tərəfləri var. Müsbət tərəflər aydındır- hər bir faktı, hadisəni əhaliyə daha tez çatdırmaq olur, operativlik yüksəkdir, canlı yayım vermək, limitsiz foto və video əlavə etmək, bunu milyonlarla ünvana çatdırmaq, onlayn göndərmək, interaktivlik təmin etmək imkanı var.

Mənfi tərəflər odur ki, hər cür provakativ reklam və təbliğat xarakterli məlumatlar, saxta və dezinformasiya materiallarını yaymaq asan olur. Bundan başqa, söyüş, təhqir, şantaj imkanları genişdir. Çünki burada mənbəni tapmaq da çox vaxt mümkün deyil. Adam oturub misal üçün Avstraliyada, Azərbaycandilli bir sayt açıb istədiyi hoqqanı çıxara bilər. Hətta ümummilli və dövlət əhəmiyyətli proseslərdə təxribatlar da törətmək mümkündür. Dəfələrlə bunun şahidi olmuşuq.

Bir çoxu diletantlar, reketlər, dələduzlardan ibarət olmaqla xeyli sayt açılıb xəbər yayır. Peşəkarlıq çox aşağı səviyyədə, maddi texniki baza zəif, əhatə dairəsi və müxbir postları şəbəkəsi yox, dünya informasiya məkanına təsir gücü sıfır vəziyyətdə, heç bir etika, ədəb, mənəvi norma yox. Təbii ki, azsaylı istisnalarla. Çoxu 1-2 nəfərdən ibarətdir- o da sayt adminləri.

Orta səviyyəli saytların da yaydıqlarının 90 faizi hazır rəsmi məlumatlar, əməkdaşların telefonla kimisə danışdırdığı, tədbirlərdən göndərdiyi "o dedi, bu dedi" qəbilindən "eksklüziv" xəbərlərdır. Yaradıcılıq, xəbər axtarışı, problem tapıb ortaya qoymaq, analiz etmək və araşdırmaq payı çox azdır.

Elektron medianın oxucu, tamaşaçı əldə etmək naminə cəmiyyətə zərərli, mənəvi dəyərlərə zidd materiallar verməsinə qarşı qəzetlər faydalı və keyfiyyətli materiallarla çıxış edir. Satışdan, abunədən, reklamdan normal gəlir əldə edə bilmədiklərin baxmayaraq ayaqda qalmağa çalışan qəzetlər milli və dövlət maraqlarımızın ən qatı müdafiəçisi rolunda çıxış edir. Tarixdə, kitabxanalarda qəzetlərin yazdıqları qalacaq, "havadan" ibarət olan elektron mənbələrə ümid yoxdur. Bu səbəbdən heç olmasa 4-5 qəzet normal maliyyələşdirilsə və onların ideoloji təbiğat vasitəsi kimi güclənməsinə dəstək verilsə daha yaxşı olar. Son nəticədə həm dövlətimiz, həm cəmiyyətimiz qazanar.

# Yer təhlükənin astanasındadır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb*

***Neft və qaz kimi yanacaq tullantıları ilə idarə olunan iqlim dəyişikliyi sürətləndikcə dəniz istiliyi dalğaları, rekord meşə yanğınları və sahil inkişafı bu sistemləri öz hüdudlarından kənara çıxarır. Birləşmiş Millətlər Təşkilatına bağlı hökumətlərarası elmi qurumun 2019-cu il hesabatına görə, təxminən 1 milyon növ canlı məhv olmaq təhlükəsi ilə üzləşir və bunların bir çoxu onilliklər ərzində əsasən yaşayış yerlərinin məhv edilməsi, çirklənmə və təbii sərvətlərin həddindən artıq istifadəsi kimi insan fəaliyyətləri səbəbindən baş verir.***



Bütün dünya ekoloqları və alimlər deyir ki, iqlim dəyişməsi təbiətin adaptasiya sürətini "ötüb keçib". İndi dünyanı qorumaq üçün DNT analizləri ilə daha davamlı növlər seçilir. Amma bu, problemi tam həll etmir - əsas çıxış yolu emissiyaların azaldılmasıdır. Alimlər konservasiya genomikası adlanan yeni bir sahə ilə bu boşluğu doldurmaq üçün çalışırlar: quraqlıq, xəstəlik və digər iqlim ekstremal şəraitində yaşamaq üçün uyğun xüsusiyyətlərə malik fərdləri müəyyən etmək üçün orqanizmin tam genetik planını ardıcıllıqla müəyyənləşdirmək və sonra bu məlumatdan bərpa işlərinə rəhbərlik etmək üçün istifadə etmək.

Mərcan rifləri bu genomik vasitələrin istifadə edildiyi ilk ekosistemlər arasındadır. Kütləvi ağarmaya səbəb olan təkrarlanan dəniz istilik dalğaları dünya miqyasında rifləri viran qoyub. Tədqiqatçılar mərcanları və onların içərisində yaşayan yosunları ardıcıllıqla müəyyən edərək, təbii olaraq daha yüksək temperaturlara davam gətirən koloniyaları müəyyən ediblər və bu daha davamlı mərcanların selektiv şəkildə yetişdirilməsinin və yetişdirilməsinin riflərin bərpasına dəstək olub-olmadığını yoxlamağa başlayıblar.

Cənubi Kaliforniyada tədqiqatçılar ənənəvi bərpa metodları zəiflədikcə dəniz otu növü olan ilanbalığına bu yanaşmanı tətbiq edirlər. Bitki balıqlar, xərçəngkimilər və planktonlar üçün yaşayış yeri təmin edir, köçəri quşları bəsləyir və sahil çöküntülərində karbon və metanı - hər ikisi də istilik tutan istixana qazlarını saxlayır. San Dieqonun körfəzlərindəki şərait dəyişir. Sular istiləşir.

Bu arada, cənub qütbünün iki ikonik növü, imperator pinqvin və Antarktika xəz suitisi, qlobal istiləşmənin onların yaşayış yerlərində yaratdığı kəskin dəyişikliklərin nəticəsi olaraq dünyanın aparıcı təbiəti mühafizə orqanı tərəfindən rəsmi olaraq nəsli kəsilməkdə olan heyvanlar siyahısına daxil edilib. Beləliklə, "İmperator pinqvin"lər rəsmi olaraq "endangered" (nəsli kəsilməkdə olan) statusu alıb.

"The Washington Post " yazır ki, bu qərarı IUCN (International Union for Conservation of Nature - "Beynəlxalq Təbiəti Mühafizə İttifaqı) verib. IUCN 1948-ci ildə yaradılıb və dünyanın ən böyük ekoloji təşkilatlarından biridir. Bu ittifaq dünya ölkələrinin hökumətləri və alimlərlə birlikdə işləyərək qlobal təbiətin qorunması, heyvan və bitki növlərinin izlənməsi, ekoloji problemlərin araşdırılması ilə məşğul olur. Pinqvinlərin sayının sürətlə azalmasının əsas səbəbi buzların əriməsi ilə əlaqələndirən təşkilat araşdırmalarının nəticələrində bildirir ki, bu pinqvinlər çoxalma üçün dəniz buzuna ehtiyac duyur. İqlim istiləşdiyi üçün buzlaqlar tez qırılır, tez əriyir, nəticədə balalar hələ üzməyi bacarmadan suya düşür və ölür. Cənub qütbündə hal-hazırda təxminən 600 minə yaxın pinqvin qalıb, proqnozlara görə 2080-ə qədər bu say yarıbayarı azala bilər. Qlobal iqlim dəyişikliklərinin yaratdığı fəsadlara görə təkcə pinqvinlər deyil, Antarktikada başqa heyvanlar da təhlükədədir. Məsələn, dəniz suitiləri də "endangered" oldu, əsas səbəb okeanın isinməsi, qidanın azalmasıdır.

Bu təhlükə bütün dünya üçün həyacan siqnalıdır. Ekoloq alimlər deyir ki, Antarktidada bu vəziyyətin qeydə alınması bütün bəşəriyyəti hədələyir, çünki bu qitə Yer kürəsinin iqlimini tənzimləyir. Problem tək pinqvinlər deyil, onlar bizi gözləyən qlobal ekoloji problemin ilk siqnalıdır. Yəni pinqvinlərin vəziyyəti daha böyük ekoloji problemin xəbərdarlığıdır. Əgər qlobal səviyyədə tədbir görülməsə, vəziyyət daha da pisləşəcək.

**Lalə Mehralı**

# Macarıstanda Orban dövrü BİTDİ

***Avropada gərginliyin və dövlətlərarası qarşıdurmanın yaşandığı bir dövrdə Macarıstanda parlament seçkiləri keçirilib. Aprelin 12-də baş tutan seçkilərdə əhalinin 77,8 faizinin iştirak etdiyi bildirilir. Bu da ölkə tarixində ən yüksək göstərici hesab olunur. Ölkə üzrə səsvermə yerli vaxtla 19.00-da (Bakı vaxtı ilə 21.00) başa çatmalı olsa da, bəzi məntəqələrdə növbədə olanları nəzərə alaraq onlara səs vermək imkanı yaradılıb. Macarıstanın Milli Seçki Bürosunun (MSB) məlumatına görə, ölkədə səsvermə hüququna malik 7,9 milyon əhali mövcuddur. Seçkilərdə iştirak həddi yoxdur, buna görə də səs verənlərin sayından asılı olmayaraq onlar baş tutmuş hesab olunur.***

Seçki ərəfəsi aparılan rəy sorğularına görə, rəqabət daha çox hazırkı baş nazir Viktor Orbanın rəhbərlik etdiyi FİDES Partiyası, radikal sağ Yaxşı Macarıstan Uğrunda Hərəkat Partiyası, Macarıstan Sosialist Partiyası, yaşıllar, Demokratik Koalisiya Partiyası və liberallar arasında gedəcəyi gözlənilirdi. Seçkilərdə parlamentdəki 199 yer bölüşdürülür, onlardan 93 mandat partiya siyahıları, daha 106 mandat isə birmandatlı dairələr üzrə paylanacaq. 2022-ci ildə keçirilmiş parlament seçkilərində FİDES və XDXP koalisiyası 135 deputat yeri qazanaraq konstitusion səs çoxluğu əldə etmişdir.

Seçki ərəfəsi Baş nazir Viktor Orban və onun rəhbərlik etdiyi millətçi Fidesz partiyasının çətin, həm də ağır sınaq qarşısında olacağı proqnozlaşdırılırdı. Çünki 16 illik hakimiyyəti dövründə V. Orban əhalinin böyük hissəsinin dəstəyini qazana bilib. Lakin Orbana müxalif Avropa İttifaqı yönlü Tisza partiyasının rəhbəri Peter Magyar da zəif namizəd olmayıb. Onun namizədliyini Fransa, Böyük Britaniya, eləcə də Almaniya və Niderlan dəstəkləyirlər. İddialara görə, Almaniya və Fransa seçkilər zamanı Peter Magyara maliyyə dəstəyi göstəriblər. Macarıstan



Milli Seçki Bürosunun məlumatına istinadən demək olra ki, artıq Avropa İttifaqının maliyyə "boslar"ı çətinlik çəkmədən seçki yolu ilə Orbanı sıradan çıxmağa nail olublar. Bu məslədə Ukraynada məmnun olacaq. Çünki Orban açıq şəkildə Ukraynanın Aİ-na üzvlüyə qarşı çıxırdı. Bununla yanaşı bu yaxınlarda V.Orban hökuməti Avropa İttifaqının Ukraynaya 90 milyard avroluq kreditin verilməsini bloklamışdır. Məhz bu amil Avropa İttifaqı ilə V.Orban arasında dərin uçurum yaratmışdır. Orbanın Brüssellə fikir ayrılıqları yalnız Ukrayna ilə məhdudlaşmayıb, o, əvvəlcə Rusiya ilə münaqişəsində silah və pulla dəstəkləməkdən imtina edib. V.Orban mövqeyini suveren bir ölkənin başçısı olduğuna əsaslanaraq, Macarıstanın kiminlə münasibətləri, əsasən iqtisadi münasibətləri saxlayacağına özü qərar verdiyini bildirmişdir. Buna görə də, dənizə çıxışı olmayan ölkə Avropanın tamamilə boykot elan etdiyi Rusiyadan sabit neft tədarükü almağa davam etdi.

Almaniyanı, Niderlandı, Fransanı və digər Avropa ölkələrini narazı salan amillərdən biri də, Orbanın ənənəvi dəyərləri rədd edən və "cinsi azlıqların qorunmasını" prioritetləşdirən "ümumavropa əxlaq normalarını" qəbul etməkdən imtina etməsi idi. Bütün bunlar nəticədə AB-nin son seçkilərdə kimi dəstəklədiyi səsvermədən çox əvvəl aydın idi. Yəni Avropa ölkələri resurslarını Orbanın rəqibi Peter Magyarı dəstəkləməyə yönəltmişdir.

## Macarıstanda yeni dövr başlayır

MSB-nin məlumatına görə, bülletenlərin təxminən 72 faizi hesablanıb. İlkin nəticələrə görə, Baş nazir Viktor Orban Tisza partiyasının lideri Peter Maqyara məğlub olub. Artıq məğlubiyyətini etiraf edən və qaydalardan kənara çıxmayan Orban "Tisa" partiyasının lideri Peter Maqyara telefonla zəng edərək onu qələbəsi münasibətilə təbrik edib.İlkin nəticələr göstərir ki, "Tisa" partiyası hazırda səslərin 54 faizini, Baş nazir Viktor Orbanın rəhbərlik etdiyi "Fides" isə 37 faizini qazanıb.Bununla da Peter Maqyarın Maqyarın rəhbərlik etdiyi "Tisa" partiyası 199 yerlik parlamentdə 138 yer qazanır. Səs limitini keçərək parlamentə daxil olacağı gözlənilən üçüncü partiya "Mi Hazank" isə 7 yer qazanacaq. Ölkənin əsas qanuna görə, parlamentdə ən azı 100 yer qazanan partiya hökuməti qura bilər. Baş nazir postuna sahib olmaq üçün 133 yer lazımdır. Bu isəonu deməyə əsas verir ki, Fransa, Almaniya və digər Avropa ölkələrinin istəkləri baş tutur. Yəni Orban sıradan çıxarılaraq onun yerinə baş nazir olaraq Peter Maqyar gətirilir.

Seçkilərin ilkin nəticələri açıqlandıqdan sonra V.Orban xalqa müraciət edib və məğlubiyyətini etiraf edərək deyib: "Seçki nəticələri ağrılıdır, lakin aydındır. Mən qalib partiyanı təbrik etdim. Bu nəticələrin ölkəmizin və millətimizin taleyi üçün nə ifadə edəcəyini hələ bilmirik, bunu zaman göstərəcək. Lakin biz müxalifətdə olsaq belə, ölkəmizə xidmət etməyə davam edəcəyik".

Məlumat üçün qeyd etmək lazımdır ki, Peter Magyar yaxın keçmişdə Orbanın əsas tərəfdarlarından olub. Ancaq P. Magyar hakimiyyət bölgüsü məsələsində iddialarını reallaşdıra bilmədiyindən 2024-cü ilin fevralında Fidesz partiyasından ayrılıb.

Xarici KİV-lərdə yayılan məlumatlara görə, Magyarın Orbanın rəhbərlik etdiyi partiyadan ayrılmasının səbəbi ölkə prezidentinin mövqeyinə əsalanan qalmaqallı hadisədən sonra tezləşdirilib. Belə ki, Macarıstan prezidenti Katalin Novak dövlət uşaq evində baş vermiş cinsi zorakılıq olayının ört-basdır edilməsinə yardım etmiş bir şəxsi əfv etdikdən sonra hökumət ciddi tənqidlərlə üzləşmişdi. Belə vəziyyətdə Magyar partiyadan ayrılır və fəaliyyətsiz vəziyyətdə olan Tisza partiyasının quruculuğuna başlayır. Daha çox populizmə və quru vədlərə üstünlük verməsi siyasi çevrələrdə özünə rəğbət qazandırıb. Magyar seçki prosesi zamanı açıq şəkildə bəyan etmişdir ki, əgər o seçkilərdə qalib gələrək baş nazir olsa Avropa İttifaqı ilə sıx əlaqələr quracaq və Orbanın Ukraynaya qarşı mənfi münasibətini tamamilə dəyişəcək. Bu mövqe Avropa İttifaqına daxil olan bəzi dövlətləri qane edir. Çünki Orban qurumun Ukraynaya maliyyə yardımları və silah satışının göstərilməsinin əleyhinədir. Dəfələrlə Orban Avropa İttifaqının Ukraynaya maliyə yardımlarını bloklayıb və bir növ Rusiyanın səsi rolunda çıxış edib. Nəticələr isə Orban üçün ağır oldu. Yəni V.Oraban müstəqil, dövlətinin maraqlarına, xalqının mənafeyinə əsaslanan müstəqil siyasətinin qurbanı oldu. Bundan sonra Macarıstanı nə gözlədiyini demək çətin olsa da, ortada olan fakt ondan ibarətdir ki, uduzan yalnız V.Orban deyil, həm də Rusiyadır. Rəsmi Moskva artıq Avropa İttifaqındakı əsas adamını, dəstəkçisini də itirdi.

**İLHAM ƏLİYEV**

SON SƏHİFƏ
SƏS
14 aprel
2026-cı il

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Ev seçimi yox, risk seçimi: düzgün qərar necə verilir?



Ev almaq bir çox insan üçün həyatın ən böyük qərarlarından biridir. Amma çox vaxt bu qərar emosiyalar üzərindən verilir - bəyəndik, qiymət uyğun gəldi və dərhal razılaşdıq. Halbuki daşınmaz əmlak alışı təkcə seçim deyil, həm də ciddi araşdırma tələb edən prosesdir. Çünki burada edilən kiçik bir səhv sonradan böyük maddi və hüquqi problemlərə çevrilə bilər. SİA mövzu ilə bağlı araşdırma edib.

Ən əvvəl diqqət edilməli məsələ evin sənədləridir. Çıxarışın (kupçanın) olub-olmaması əsas şərtdir. Kupçasız evlərdə alıcı faktiki olaraq hüquqi baxımdan qorunmur. Bəzən belə evlər daha ucuz təklif olunur və bu da insanları cəlb edir. Lakin sonradan məlum olur ki, həmin əmlak ya tam rəsmiləşdirilməyib, ya da ümumiyyətlə başqa şəxsin adına qeydiyyatdadır. Bundan əlavə, evin girovda olub-olmaması, üzərində hər hansı borc və ya məhkəmə işi olub-olmaması da mütləq yoxlanmalıdır. Əks halda, siz başqasının problemini öz üzərinizə götürmüş olursunuz.

Texniki vəziyyət də ən az hüquqi məsələlər qədər vacibdir. İlk baxışda ideal görünən evdə gizli problemlər ola bilər. Divarlardakı xırda çatlar, rütubət qoxusu, zəif istilik sistemi kimi detallara diqqət yetirilmədikdə sonradan ciddi təmir xərcləri ortaya çıxır. Xüsusilə yeni tikililərdə bəzən keyfiyyətsiz materiallardan istifadə olunur və bu, bir müddət sonra özünü büruzə verir. Evin yerləşdiyi ərazi də qərara birbaşa təsir etməlidir. İnfrastrukturun zəif olduğu yerlərdə yaşamaq zamanla çətinləşir. Məktəb, xəstəxana, ictimai nəqliyyat kimi əsas ehtiyaclara çıxış yoxdursa, bu, gündəlik həyat keyfiyyətini aşağı salır. Digər tərəfdən, sakit görünən bir ərazi gələcəkdə tikinti və ya yol layihələri səbəbilə səs-küylü və narahat bir məkana çevrilə bilər.

Ətraf mühit faktorları da çox vaxt nəzərdən qaçırılır. Yağış zamanı ərazidə su yığılıb-yığılmadığını, xüsusilə həyət evlərində və birinci mərtəbələrdə su basma riskini yoxlamaq vacibdir. Bu cür problemlər yalnız müəyyən hava şəraitində üzə çıxır və əvvəlcədən araşdırılmadıqda sonradan ciddi narahatlıq yaradır. Maliyyə məsələləri isə təkcə evin qiyməti ilə bitmir. Bir çox hallarda alıcılar gizli xərcləri hesaba qatmır. Təmir, kommunal ödənişlər, bina xərcləri və digər əlavə ödənişlər ümumi büdcəni xeyli artırır. Nəticədə əvvəlcə sərfəli görünən ev əslində daha baha başa gəlir. Bütün bunlarla yanaşı, bazarda fırıldaqçılıq halları da az deyil. Eyni evin bir neçə nəfərə satılması, saxta sənədlər, alıcını tələsdirmək üçün yaradılan süni təzyiq kimi hallar tez-tez rast gəlinir. Xüsusilə "təcili satılır" adı ilə təqdim olunan elanlara qarşı diqqətli olmaq lazımdır.

Ən sonda isə insan amili dayanır. Çoxları evi bəyəndiyi anda qərar verir, alternativlərə baxmır və ya kifayət qədər araşdırma aparmır. Halbuki bu prosesdə səbirli olmaq, müqayisə etmək və hər detalı yoxlamaq ən düzgün yanaşmadır. Nəticə olaraq demək olar ki, ev almaq sadəcə seçim deyil, həm də risklərin düzgün idarə olunmasıdır. Kim bu prosesi düşünülmüş şəkildə aparırsa, o həm maddi, həm də psixoloji baxımdan özünü qorumuş olur.

*Ayşən Sadıxzadə*

## Faiz açıqlanmayıbsa, bank nə qədər tələb edə bilər?

*AÇIQLANDI*



**“Faizli kreditlərin nə dərəcədə şəffaf təqdim olunduğunu dəqiq demək çətindir. Şəxsən özüm istifadə etmədiyim və vətəndaşlardan da bu barədə konkret müraciət almadığım üçün qəti fikir bildirmək mümkün deyil”. Bu sözləri SİA-ya açıqlamasında bank məsələləri üzrə mütəxəssis Əkrəm Həsənov deyib.**



O bildirib ki, amma prinsip etibarilə məsələ aydındır: burada kredit verən tərəf sahibkar, kredit götürən isə istehlakçıdır. Bu isə o deməkdir ki, söhbət istehlak krediti müqaviləsindən gedir və belə müqavilələrdə bütün şərtlər əvvəlcədən açıq və aydın şəkildə təqdim olunmalıdır: "Vətəndaş krediti götürməzdən əvvəl faiz dərəcəsi, ödəniş qaydası və digər vacib şərtlər barədə tam məlumatlandırılmalıdır. Əgər bu məlumatlar təqdim olunmazsa və vətəndaş sonradan bunu əsas gətirərsə, məsələ məhkəmə mübahisəsinə çevrilə bilər.

Belə halda məhkəmə əsasən bu suallara baxacaq: vətəndaş kredit şərtləri ilə əvvəlcədən tanış olubmu, yoxsa yox? Əgər sübut olunsa ki, məsələn, illik 30% faiz barədə məlumat verilməyib və ya sistemdə bu açıq görünməyib, o zaman bu şərt etibarsız sayıla bilər. Bu vəziyyətdə vətəndaş götürdüyü əsas borcu qaytarmalıdır. Yəni, məsələn, 8000 manat kredit götürübsə, həmin məbləği ödəməlidir. Lakin faiz məsələsi ayrıca qiymətləndirilir. Əgər faizlə bağlı şərt qanuni şəkildə razılaşdırılmayıbsa, o zaman Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən standart olaraq illik 5% faiz tətbiq oluna bilər. Bu isə bazar şərtləri ilə müqayisədə xeyli aşağı faiz hesab olunur".

*Ayşən Vəli*

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur
Tiraj: 2000